**MEMARLIQ**

**АРХИТЕКТУРА** **ARCHITECTURE**

# MÜASİR İNTELLEKTUAL İDARƏÇİLİK SİSTEMLƏRİNİN MEMARLIQ VƏ İNTERYER MÜHİTİNİN FORMALAŞMASINDA ROLU

**Ağayeva Nərgiz Əli qızı-** m.f.d., dosent, Dizayn kafedrası, AzMİU, nargiz.agayeva@hotmail.com

**Annotasiya.** Memarlıq və dizayn aləmində "mühit"- layihələndirmə obyekti olaraq, yaradıcılıq fəaliyyətinin məqsəd və nəticələrinin layihə mədəniyyətində birləşməsi kimi qəbul olunur. Geniş anlamda isə, mühit - bizim əhatəmiz, əşyavi-məkan çevrəmiz, insanın fərdiyyət kimi ilk təmasda olduğu "hazır münasibətlər sistemi"dir. Mühitin insanın cəmiyyətdəki "sağlam" mövqeyinin formalaşması və müəyyənləşməsində rolu önəmli və danılmazdır.
**Açar sözlər:** hazır münasibətlər sistemi, makro və mikromühit, mühit dizaynı, ultramüasir idarəetmə sistemləri, multi funksiyalar, insani tələbatlar, hakim düşüncə tərzi

# ROLE OF MODERNNITELLECTUAL MANAGEMENT SYSTEMS IN THE FORMATION OF ARCHITECTURE AND INTERIOR ENVIRONMENT

**Agayeva Nargiz Ali-** docent, department of Design, AzUAC, nargiz.agayeva@hotmail.com

**Abstract.** Environment- being the object of design at architecture and design, is accepted as purpose and result of creative activities joining at design culture. But broader sense, environments "made relations system" as our environment, objective-space circle, human individually contacted.
**Keywords**: environment, macro environment, micro environment, "second nature", aesthetic concept, charm, aesthetic bliss, design of environment, the range of color

Memarlıq və dizayn aləmində "mühit" anlayışı- layihələndirmə obyekti olaraq, yaradıcılıq fəaliyyətinin məqsəd və nəticələrinin layihə mədəniyyətində birləşməsi kimi qəbul olunur. Geniş anlamda isə, mühit- bizim əhatəmiz, əşyavi-məkan çevrəmiz, insanın fərdiyyət kimi ilk təmasda olduğu "hazır münasibətlər sistemi"dir. Bu baxımdan, mühitin- insanın cəmiyyətdəki "sağlam" mövqeyinin formalaşması və müəyyənləşməsində rolu önəmli və danılmazdır. Fikrimizi daha qısa ifadə etsək; "mühit– bizim dinamik əhatəmizdir və ya daxilində nə isə baş verən əhatələnmiş məkanımızdır". Daha sonra, mühiti "makro" və "mikro" mühit növlərinə də bölmək olar. Makromühit – müəyyən ictimai-iqtisadi formasiyanı əhatə edən zaman kəsiyini, coğrafi-təbii landşaft səthini, şəhər, diyar, əyalət və ölkə çərçivəsindəki hazır münasibətlər sistemini təşkil edir. Mikromühit dedikdə isə, şəxsi çevrə və özəl əhatədən bəhs etmək mümkündür. Ümumilikdə isə, mühiti insan mənəviyyatının ömür boyu formalaşma mərhələlərində vacib bir faktor, silinməz bir "damğa" kimi də qəbul etmək olar (şəkil 1a) [1].

Hazır münasibətlər sisteminin növü kimi mühitə müəyyən qanunauyğunluqlar çərçivəsində tənzimlənmiş, məxsusi davranma vasitələri də xasdır. Onlara- genetik, əxlaq və davranış normalarını, davranış normalarını diktə edəcək ideoloji, mədəniyyət, qida, geyim, musiqi, mənəvi, ənənəvi-etnik keyfiyyətləri, individual temperamentə xas xüsusiyyətləri, rəng yaddaşı və qavrayışı, coğrafi- təbii şəraitin vizual obraz həllinə göstərdiyi xüsusiyyətləri və s. göstərmək mümkündür [2]. Tarixi inkişaf prosesində, xüsusilə də yeni sosial-iqtisadi münasibətlərin formalaşdığı mərhələdə yaranan yeni-yeni tələbatlar, özü ilə birgə, forma və məzmunca fərqlənən yeni predmetlərin meydana gəlməsinə də təkan vermişdir. Həmçinin, yeni materiallar, konstruksiyalar, bədii formalar,

gözəllik idealları da meydana gəlmişdir. Bəzən gözəlliyi dəblə, dəbi isə üslubla eyniləşdirirlər. Üslub – bütünlüklə, insan fəaliyyətinin bədii və ideoloji tərəflərini, aspektlərini əhatə edir. Dəb isə bir çox əsrlər boyu, bilavasitə insani tələbatlara məmnuniyyət hissi gətirən, əşya mühitinin daha çox çevik, dinamik elementlərinə xasdır. Dəb əsasən insanın əşya mühitini, məişətini və s. yeniləmək, təkmilləşdirmək hissindən yaranmışdır. Əşya aləmi obyektləri insan ömründən daha çox mövcud olduğundan, dəbin təsirinə məruz qalmamalıdırlar. Çünki, onlarda dövrün sabit "estetik konsepsiyası" əks olunmalıdır. Lakin buna baxmayaraq, məişət əşyaları dəbin daimi təsir əhatəsinə hələ də düşməkdədirlər.

a)  b)  c) 

**Şəkil 1.** a- ictimai interyer mühitində "təbiətlə" yaxın təmasdan fraqment,
b- interyer "mikro-mühitində" funksional təchizat və avadanlıq sistemləri,
c- yeni ultramüasir tətbiqi materialların maksimum təbiətə yaxınlıq faktoru

Hal-hazırkı dövrümüz mühitin layihələndirilməsinə yeni prinsipial məsələlər qoymuş, onun bütün parametrlərini (material-fiziki, emosional-bədii, sosial və funksional-praqmatik) harmonik uyğunlaşdırmışdır. Digər mühit növləri (səhnə, din, intellektual, sosial və s.) içərisində birbaşa memarlıqla sıx əlaqəsi olan "mühit dizaynı" əsas yerlərdən birini tutur. Memarlıq və memarlıq mühitinin dizaynını ümumi xassələr- məkantəşkiledici metodlar, görüləcək işin məqsəd və nəticələri, gələcək obyekti formalaşdıran vizual vasitələr və s.birləşdirir. Onları fərqləndirən cəhət isə yalnız son nəticədə özünü biruzə verə bilir [3].

Bildiyimiz kimi, insan- gün ərzində müxtəlif qıcıqlandırıcılara məruz qalan, müxtəlif "gözəgörünməz" münasibətlər və tələbatlar içərisində davranmaq məcburiyyətində olan bir varlıqdır. Bu münasibətlər içərisində yaşam şəraitinin təminatında məhz, "komfort" anlamının rolu əvəzsizdir. Komfort- bu təmtəraq əlaməti deyil, ən-əvvəl, insan mövcudluğunun vacib şərtidir. Müasir dövrdə- yaşam mədəniyyəti səviyyəsinin artımı məqsədilə yeni, müasir komfortal tələblərə uyğun olan yaşayış məkanı modelini yaratmaq daha önəmli məsələlərdən sayılır. İnteryerin funksiyaları isə, ən- əvvəl, insanların həyat tərzi və sosial mənsubiyyətini əks etdirir. Onlar, ictimai tələbatlar və maddi-texniki imkanlarla bağlı olduğundan zamanla dəyişilə bilir. İnsanların yeni fəaliyyət formalarının inkişafı və maddi rifahın yaxşılaşdırılması interyerin müvafiq həllinin axtarışını tələb edir (şəkil 1b). Amerika alimi A.Maslou insani tələbatların 5 pilləli piramidasını müəyyən etmişdir: 1) fizioloji tələbatlar; 2) təhlükəsizlik, güvənlik tələbatı; 3) sosial tələbatlar; 4) hörmət və sayğıya olan tələbat; 5) mənəvi tələbatlar.

Bu sıralanmadan belə nəticəyə gəlmək olar ki, insani tələbatların düzgün ödənilməsi- komfortal həyatın təminatçısı kimi özünü doğrulda bilər [4]. Tarixi inkişaf prosesində, xüsusilə də yeni sosial-iqtisadi münasibətlərin formalaşdığı mərhələdə yaranan yeni-yeni tələbatlar, özü ilə birgə, forma və məzmunca fərqlənən yeni, müəyyən "mühit"i idarəedəcək ultramüasir sistemlərinin meydana gəlməsinə də təkan vermişdir. Həmçinin, yeni materiallar, konstruksiyalar, bədii formalar, gözəllik idealları da meydana gəlmişdir (şəkil 1c).

XXI əsr bəşər tarixində analoqu olmayan fəlakətləri ilə insanların düşüncə tərzini psixoloji və əxlaqi cəhətdən tamamilə dəyişə bilən bir əsr kimi iz buraxmışdır. Demək olar ki, hər şey şübhə altına alınmaq dərəcəsindədir. Xəttilik tamamilə istisna olunmuşdur. Dünya artıq məntiqi təsəvvürlər kompleksi kimi qəbul olunmur. O, artıq öz milini itirmiş, mərkəzi olmayan "xaos" kimi qəbul olunur. Əlbəttə ki, bəşər memarlığı və onunla bağlı təmayüllər bütün bu qlobal dəyişikliklərə reaksiya verməyə bilməzdi. Artiq dünya üzrə ultramüasir prinsiplərə əsaslanan; bina və qurğular üçün (ictimai və yaşam məkanları üçün) intellektual idarəetmə sistem və texnikaları- gələcəyin texnologiyalarına və yüksək keyfiyyətli dizaynla birgə çevik həllərə cəhətlənir. Bu qurğular vasitəsilə aşağıdakı "multi" funksiyalar: işıqlandırmanın avtomatik idarəçiliyi, isitmə və soyutma sistemlərinin mövsümə uyğun tənzimlənməsi, zamandan asılı olaraq temperaturun tənzimlənməsi, bütün yerləşgələrə musiqi yayımı, evlə rahat fonetik əlaqə, müdafiə sistemlərinə inteqrasiya və s. bu kimi komfortal, təhlükəsiz və məsrəfi (fiziki) azaldan müxtəlif funksiyalar həyata keçirilir.

Memarlıq və digər dizayn sahələrində dəyişikliklərə təkan verən əsas cəhətlərdən biri - insani tələbatlardır. Məhz, tələbatların artması və ya azalması dizaynın müxtəlif sahələrinin inkişafı üçün təkanverici faktordur. Dizaynın ən vacib prinsiplərindən biri isə- funksionallıq və praqmatikliyin estetika ilə vəhdət təşkil etməsidir. Digər əhəmiyyətli səbəblər içərisində, memarlıq və interyer həllini formalaşdıran- məhz, cəmiyyətin hakim düşüncə tərzini də vurğulamaq lazımdır.

Hamı məna və duyğularla dolu həyat arzusundadır. Yalnız az adam tapılar ki, bu obrazı metaforik xəyallarda deyil, hərfi mənada reallaşdıra bilsin. Müasir zəmanəmizdəki qlobal modernizm, yüksək texnologiyalar və kütləvi kompüterləşdirmə- insanların həyat və düşüncə tərzinə, zəkasına getdikcə daha da "silinməz damğa" vurmaqdadır. Bu isə qarşısıalınmaz bəşəri bir prosesin təzahürüdür. Əlbəttə ki, insanın daima təmasda olduğu şəxsi "mikromühit"i, yəni interyer məkanı da bu dəyişikliklərdən təsirsiz ötüşə bilməzdi. Zəmanənin dinamikliyi insanların davranışlarını diqtə edir desəm, məncə yanılmaram. Komfort, təmtəraq, estetik mükəmməllik- bu ifadələr, müasir həyat tərzinin devizinə çevrilərək, daima hər kəsin nail olmaq istəyəcəyi bir zirvədir. Bu keyfiyyətlərin bir ad altında cəmlənəcəyini isə təsəvvür etmək, heç də artıq "xəyal" deyil. Almaniyanın dünyaca məhşur brendi olan "GİRA" şirkətinin əsas konsepsiyasını, məhz bu keyfiyyətlərin təşkil etdiyi artıq bəlli və təqdirəlayiqdir.

Albert Eynşteyn demişdir: "mümkün qədər sadə et, ancaq bəsit etmə...". Fizika elmi dahisinin bu düsturu, müasir idarəçilik sistemləri ilə peşəkar məşğul olan şirkətlərə və onların məmulatlarına tamamilə və əminliklə tətbiq edilə bilər [5].

**Nəticə.** Beləliklə, qeyd olunanları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, mühitdə davranma vasitələrinin ictimai "idarəçilik" sisteminə təsiri mühümdür. Memarlıq və dizayn sahələrində mövcud olan "yaradıcılıq" fəaliyyətini isə- ətraf mühitin insani müdaxilə vasitəsilə, həmçinin, şəxsi və ictimai tələbatlara müvafiq surətdə dəyişilməsi prosesi kimi qəbul etmək mümkündür. Elmi biliklərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, əhatəsindəki əşyalarla insan mənəvi və maddi tələbatlarına uyğun "ikinci təbiət" yaratmış, daima "gözəllik" ehtiyacında olduğunu bir daha sübut etmişdir. İctimai və maddi mühit insanın təkcə zahiri çevrəsi, mövcudluğu üçün vacib şərait deyil, həm də həyati amili kimi də özünü biruzə verir. "İkinci təbiət" elementləri insanın fiziki və yaradıcı imkanlarını genişləndirir. "İkinci təbiət" elementlərinin köməyi ilə hissiyyat orqanlarının işi belə mükəmməlləşir, əşyaların vasitəsilə insan yaxşı görmə, eşitmə və hiss etmə qabiliyyətləri əldə edir. Nəticədə, o, əşyavi mühitdə özünü fiziki və mənəvi cəhətdən təsdiq etmiş olur.

**Ədəbiyyat**

1. Ağayeva N.Ə. İnteryer mühitinin dizaynı (azərb. və rus dillərində), Dərs vəsaiti, Bakı, 2013.
2. Буймистру Т.А. Колористика: цвет-ключ к красоте и гармонии М.; Издательство Ниола-Пресс, 2008.
3. Ağayeva N.Ə. İnteryerin dizayn tərtibatı və avadanlığın təşkili (azərb. və rus dillərində), Metodik vəsait, Bakı, 2007.

4. Казаринова В.И. Красота, вкус, экономика, Москва, Экономика, 1985.
5. Ağayeva N.Ə. İnteryer qrafikası (azərb. və rus dillərində), İllüstrasiyalı albom-metodik vəsait, İstanbul (Meqa), 2014.

**References**

1. Agayeva N.E. İnteryer muhitinin dizayni (azerb. ve rus dillerinde), Ders vesaiti, Baki, 2013.
2. Bujmistru T.A. Koloristika: cvet-kljuch k krasote i garmonii M.; Izdatel'stvo Niola-Press, 2008.
3. Agayeva N.E. İnteryerin dizayn tertibati ve avadanligin teshkili (azerb. ve rus dillerinde), Metodik vesait, Baki, 2007.
4. Kazarinova V.I. Krasota, vkus, jekonomika, Moskva, Jekonomika, 1985.
5. Agayeva N.E. İnteryer grafikasi (azerb. ve rus dillerinde), İllustrasiyali albom-metodik vesait, İstanbul (Meqa), 2014.

Redaksiyaya daxil olma/Received 02.01.2019
Çapa qəbul olunma/Accepted for publication 02.02.2019